ƏDƏBİYYAT QƏZETİ



Faleh Mansur

## İlahi istək

Bu necə ömürdü qarmaqarışıq?
Allah, alın yazıma düzəliş eylə,
Lüt-üryan zülmətəm,
Dil tökən diləm.
Dilimə söz göndər,
Əynimə işıq.
Doldurub şərabı
boğdum badəmi,
Al mənim ruhumu,
Badəmə qaytar.
Bizim hamımızı Həvva qarışıq,
Öldürüb, dirildib
Adəmə qaytar.
Sən bizi bir günə,
Bir ana topla,
Bütün sevgiləri insana topla.
Qışı qarda basdır,
Yazı çəməndə
Al yayın canını çayda çiməndə
Payızı mənə ver
Büküb yarpağa
Bir də...
Bir də  oruc tutsun torpaq bir səhər
Ölüm, iftar olum axşam torpağa.

* * *

Bir qəbir şərab ola.
Torpaq içə,
Sən içəsən...
Dolan qəbir boşala,
Üzün gülə.
Qəbir gələ xoş hala
Başın dönə,
Yıxılasan boş qəbrə
O dərdli sərxoş qəbrə.
Torpağı qucaqlayasan,
Hönkür-hönkür ağlayasan.
Göz yaşların axıb örtə üstünü,
Gözlərinin dənizində boğulasan.
Bu dünyaya göz açmadan
O dünyaya doğulasan...

*Qazax*

**Xalq yazıçısı F**